# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiq olunması ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 150 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Mədəni irs obyektləri (daşınmaz tarix və mədəniyyət abidələri) üzrə təmir-bərpa işləri ilə bağlı üstəlik xərclərin və smeta gəlirinin normativlərinin tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiq olunması ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 150 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 529, № 10, maddə 1180) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Tikintidə üstəlik xərclərin normativləri” üzrə:

1.1. 1.1.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.4-cü yarımbənd əlavə edilsin:

"1.1.4. mədəni irs obyektləri (daşınmaz tarix və mədəniyyət abidələri) üzrə təmir-bərpa işlərinin smeta dəyəri təyin edilərkən bərpaçı-fəhlələrin və mexanizatorların cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna (vəsaitinə) tətbiq edilməsi üçün üstəlik xərclərin normativi.";

1.2. 2.1-ci bəndin cədvəli aşağıdakı redaksiyada verilsin:

Cədvəl

| Sıra №-si | İş növlərinin adı | Üstəlik xərclər üzrə normativlər | | |
|---|---|---|---|---|
| | | tikinti fəhlələrinin və mexanizator-ların cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna tətbiqi üçün (faizlə) | buraxılış-sazlama işlərini yerinə yetirən heyətin cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna tətbiqi üçün (faizlə) | bərpaçı-fəhlələrin və mexanizatorla-rın cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna tətbiqi üçün (faizlə) |
| 1. | Tikinti-quraşdır-ma işləri üzrə (təmir-tikinti işləri istisna olmaqla) | 90 | - | - |
| 2. | Təmir-tikinti işləri üzrə | 80 | - | - |
| 3. | Buraxılış-sazla-ma işləri üzrə | - | 55 | - |
| 4. | Mədəni irs obyektlərində (daşınmaz tarix və mədəniyyət abidələrində) təmir-bərpa işləri üzrə | - | - | 90 |

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Tikintidə smeta gəlirinin normativləri" üzrə:

2.1. 1.1.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.4-cü yarımbənd əlavə edilsin:

"1.1.4. mədəni irs obyektləri (daşınmaz tarix və mədəniyyət abidələri) üzrə təmir-bərpa işlərinin smeta dəyəri təyin edilərkən bərpaçı-fəhlələrin və mexanizatorların cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna (vəsaitinə) tətbiq edilməsi üçün smeta gəlirinin normativi.";

2.2. 2.1-ci bəndin cədvəli aşağıdakı redaksiyada verilsin:

Cədvəl

| **Sıra №-si** | **İş növlərinin adı** | **Smeta gəliri üzrə normativlər** | | |
|---|---|---|---|---|
| | | **tikinti fəhlələrinin və mexanizatorla-rın cari qiymət-lər səviyyəsin-də əməkhaqqı fonduna tətbiqi üçün (faizlə)** | **buraxılış-sazlama işlərini yerinə yetirən heyətin cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna tətbiqi üçün (faizlə)** | **bərpaçı-fəhlələrin və mexanizator-ların cari qiymətlər səviyyəsində əməkhaqqı fonduna tətbiqi üçün (faizlə)** |
| 1. | Tikinti-quraşdır-ma işləri üzrə (təmir-tikinti işləri istisna olmaqla) | 52 | - | - |
| 2. | Təmir-tikinti işləri üzrə | 40 | - | - |
| 3. | Buraxılış-sazla-ma işləri üzrə | - | 32 | - |
| 4. | Mədəni irs obyektlərində (daşınmaz tarix və mədəniyyət abidələrində) təmir-bərpa işləri üzrə | - | - | 52 |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 28 noyabr 2022-ci il

№ 422